DOI: 10.30546/114578.2024.5.55

AZƏRBAYCAN DİLİNİN ŞƏRQ QRUPU DİALEKTLƏRİNDƏ SİNONİMLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Fidan Yusifova
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
http://ORCID.org:/0000-0002-0300-0749
yusifovaf@gmail.com

Xülasə

Azərbaycan dilində olduğu kimi, onun dialektlərində də yazılışına görə müxtəlif, mənasına görə bir-birinə yaxın olan leksik vahidlərə – sinonimlərə rast gəlinir. Sinonimlər fikrin dəqiq ifadə edilməsində mühüm rol oynayır, yersiz təkrarların qarşısını alır. Sinonimlərin tədqiqi ayrı-ayrı dövrlərdə ədəbi dilimizi öyrənmək, dialektlərin leksik tərkibinə daxil olan yaxın mənalı sözlərin sonrakı inkişafını, mövqeyini təyin etmək baxımından əhəmiyyətlidir. Azərbaycan dilinin şərq qrupu dialekt və şivələri sinonim sözlərlə zəngindir. Həmin dialekt və şivələrin lüğət tərkibində elə sinonimlər vardır ki, ədəbi dildə belə sözlərə rast gəlinmir.

Açar sözlər: dialekt, şivə, sinonim, leksika, semasiologiya.

SEMANTIC FEATURES OF SYNONYMS IN THE EASTERN GROUP DIALECTS OF THE AZERBAIJANI LANGUAGE

Fidan Yusifova
Azerbaijan State Pedagogical University

Abstract

Just like in the Azerbaijani language, in its dialects, there are lexical units that are different in writing but similar in meaning-synonyms. Synonyms play an important role in the precise expression of the idea, preventing unnecessary repetitions. The study of synonyms is important in terms of studying our literary language in different periods, determining the further development and position of words with close meanings included in the lexical composition of dialects.

The dialects and accents of the eastern group of the Azerbaijani language are rich in synonymous words. In the vocabulary of those dialects and accents, there are synonyms that do not occur in the literary language. As in the case of the Azerbaijani language, in its dialects there are lexical units − synonyms − that are different in terms of spelling and close to each other in terms of meaning. Synonyms play an important role in the precise expression of the idea, preventing unnecessary repetitions.

Key words: dialect, accent, synonym, lexicon, semasiology.

СЕМАНТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА СИНОНИМОВ В ВОСТОЧНЫХ ГРУППОВЫХ ДИАЛЕКТАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Фидан Юсифова
Азербайджанский государственный педагогический университет

Резюме

Как и в азербайджанском языке, в его диалектах встречаются лексические единицы, которые различаются по написанию, но близки по значению − синонимы. Синонимы играют важную роль в точном выражении мыслей, предотвращают ненужные повторения. Исследование синонимов важно для изучения нашего литературного языка в различные исторические периоды, а также для определения дальнейшего развития и положения слов с похожим значением в лексиконе диалектов. Восточная группа диалектов и говоров азербайджанского языка богата синонимами. В лексическом составе этих диалектов и говоров встречаются такие синонимы, которые не встречаются в литературном языке.

Как и в азербайджанском языке, в его диалектах встречаются лексические единицы, которые различаются по написанию, но близки по значению − синонимы. Синонимы играют важную роль в точном выражении мыслей, предотвращают ненужные повторения. В лексическом составе этих диалектов и говоров есть такие синонимы, которые не встречаются в литературном языке.

Ключевые слова: диалект, говор, синоним, лексика, семасиология.

Giriş/Introduction

Sinonimlər ədəbi dildə inkişaf edərək dili zənginləşdirir. Dialektlərdə sinonimləri fərqləndirməyə xüsusi diqqət yetirilməlidir. Belə ki, dialektlər içərisində sinonimlik yaradan sözlə leksik sinonimi qarışdırmaq olmaz. Leksik sinonim istər ədəbi dildə, istərsə də dialektlər içərisində işlənərək öz sinonimliyini saxlayır. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində sinonimlər ən mühüm üslubi vasitə hesab olunur. "Dildə üslub zənginliyi ilə seçilən sinonimlərin çox böyük əhəmiyyəti vardır" [Hüseynzadə, 1954:12]. Ümumiyyətlə, dialektlərdə sinonimlərin həm qoşa işlənməsi, həm də sadalanması xüsusiyyətinə rast gəlirik.

Semasioloji söz qruplarından olan sinonimlər daxili bənzərliyi, morfoloji quruluşu, fonetik formasına, fikrin ən incə çalarlarla ifadəsinə görə biri-birindən fərqlənir. Ədəbi dilimizdə sinonimlərlə əlaqədar müxtəlif ziddiyyətli fikirlər olmuşdur.

Nitq hissələri ilə ifadə olunan sinonimlər.

Sinonimlər Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrinin leksikasında daha zəngindir.

a) İsimlə ifadə olunan sinonimlər. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində müşahidə edilən sinonimlərin çoxunu, demək olar ki, isimlə ifadə olunan sinonimlər təşkil edir. İsimlərdən ibarət olan sinonimlərə əşya adlarını bildirən sözlərdə rast gəlinir. Məs.: aba − ata (Q.); memə // mömə − ana (B.): – Ay memə, bı dəsməli tez mənə vərginən. Cicə // nənə, əbəçi // momonçi (Ler.); alabəhli (Q.) // gilənar (əks şiv.) // bəhli (Sal.) − albalı: − Alabəhli yazda çiçəy açadu (Q.); − Mə` bəhli verün (Sal.); güləngəriş (Sal.) // şirəşər // sirvan (Q.) − eyvan; hüni // ağcaqənət (Sal., B., Ə.B.) // ditdili (Sab.) // kormilçəg (Dər.) // uzunburun (Dər., Q., Xaç.) – ağcaqanad: *"Bu suluğda u qədər uzunburun var ki, durmağ ulmur (Xaç.)"* [ADDL, 2007:522]. Hüni az oley bıralarda (Cəl.); – şəpit (Sal.) // lapçın (Lən. Sab., Şam.) ev ayaqqabısı: – Dilarə lapçının itirib (Sab.); – Başmağçiyə lapçın tapşırdım, sə`nçün (Şam.). Ökəbə // ağcigar − ağciyər (Ler.); çalə (Ler.) // acıtma // acıxəmrə (Sal., Sab.) − maya: − Acıtmasız xəmir yaxşı olmır. Poyluş // soğat // şey-şü // ayın-oyun (Ab.şiv.) − hədiyyə: − Xasiyetim xərəbdü, poyluşsuz anamgildən qeyitmirəm (Maş.); siçan // məncərə; kıça // bəndəm (Bil., Höv.) − saplaq; əginboş //sur-suy (Buz., Maş., Nar.) - paltar; yovannığ // nôxarış // numxarış (Bil., Mər., Şağ.) − yavanlıq; pıtə // yaməğ (Ler.); abgərdən // kəmçə // kömcə (əks.şiv.) − çömçə; qıfıl − açar (Q.); ləmbəki // buşğab (Q.) − nəlbəki: − Usdula buşğab quyun. Badi//limçə (Q.) // masqura (B.) − nimçə: − Bizə bir badi aş verədü. Lehmə (Q., Xaç.) // lıqqa (B., Sal., Lən.) // lehə (Sal.)

// çomur (Cəl.) – palçıq: – Torpağ ləhməydü, axırdı. − Maşınımız lıqqıya batdı (Şam.).Yeznə (büt. şiv.) // göy // hüvər (Dəv.) – bacının əri; çəm (Sal.) // yol-yolağa (Sab., Sal.) – üsul, qayda; təlis // dəsmal; pilək // sədəf // çalkeçird-düymə (Ler.); yağluğ (Dər.) // alınnığ (Sal.) // cəməğ (Ler.) − yaylıq.– Bu yağluğa baxanda görədü ki, özünün yağluğu qalıb burda (Dər.); – Keçmişdə bizim arvaddarın alınnığı olardı (Sal.); – Qəynənəmdə iki dənə cəməğ var (Ler.); şəpit // lapçın (Şam., Lən., Sab.) – yüngül ev ayaqqabısı: − Qızımçun bazardan təzə lapçın aldım (Sab.).

b) Sifətlərlə ifadə edilən sinonimlər. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində sifətlərdən ibarət olan sinonimlər daha çoxdur. Nümunələrə baxaq: cılxa (Sal.) // têxa (Sab.) – tamam, bütün: − Bı yerrərdə têxa pammığ əkmüşdük. Lõdur (B., Sal.) // künəgir(B.) // usal (Xaç.) // ərincəy (Sal., Cəl.) – tənbəl; kətda (Sab.) // forsdu (əks. şiv.) // yekəxana (əks. şiv.) – lovğa; təytinmiş // aşiş-sakit (Ler.); düşüg (Sal., Sab., Ə.B.) // dingiş (Sal.) // doydağ (Sab.) – yüngül xasiyyətli; sısqa (Q.) // cüləz (Q.) // arığ // canəzil // zeyif // düşgin (Lən., Ler.) – arıq; cükqulu // cüngüşməni (əks.şiv.) − cılız, kiçik adam; beröyiş // tərtibsız // eybəcər (Ler.); nataraz // hötdürüm // dövədəllegi // legi // zıbığ (Z.) // besdərək // pezevəng (Nar., Maş., Bil., Şağ.) − iri gövdəli adam; həlim// emıl // mehriban (Ler.); *"başdanxərəb // sərsağ // semə // tentük // həştirap (Buz., Şağ., Mər., Bil.)"* [Vəliyeva, 2001:145]; incə//yuxa-zəif; səletə // xərəngə // hayəsız // qərəyçi (Ler.); simic // bərk // qıyımsız // semarrığ // gedeqız (Buz., Maş., Mər.) // xəsis // kirnis // çınığ // daşun // koçi (Ler.) − xəsis; dələgey // dələngavaz // şalattı (Mər., Maş., Buz.) − həyasız; cığəl // dəğəl; sol // klizə // baləcə (Ler.); süləngi (Q.) // sümsüy (Sal.) – bir yerdə oturmayıb qapı-qapı gəzən adam; ləlo^{u}n // sülösün // qarınxur // süləngi // acgüz // çuxyiyən // qarınpə (Ler.) (Q., B.); əciz // əməzig // fərsiz // küt // başərığsız (Ler.). Məs.: − Əciz adam olsan, əyağaltdə qalarsən (Lən.); − Qonşimun uşəği elə qarınpə uşəğdu ki (Ler.).

c) Feillərlə ifadə edilən sinonimlər. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində feillərlə ifadə edilən sinonimlər nisbətən çoxluq təşkil edir. Burada sinonim cərgə yaradan feillər hal-hərəkət, iş, vəziyyət və s. mənalar bildirir: tõlamağ (əks.şiv.) // dilə tutmağ (B., Şam.) // qılığlamağ // başını pişirməy (Sal., Sab.) – aldatmaq, yoldan çıxarmaq; bağrı yarılmağ (əks. şiv.) // ürey-göbeyi düşməg (B.) – qorxmaq; qozqırmağ // kekelənmeg // qolaylanmağ; çaşmağ // boşıni itirmeg (B.), ağlı qarışmağ, özündə-sözündə olmamağ // təntiməy (Şam., Sal.) – özünü itirmək, çaşıb qalmaq; sebil // pərən-pərən olmağ (Buz.) − dağılmaq; ço^{u}mağ // çapmağ (Buz., Mər.) – boş-boş gəzmək; lalımağ // zəvziməg (Sal.) –

yalvarmaq; pırtdanağı çıxmağ // xurt-xəşil olmağ (B., Sal.) – əzilmək; fır elemeg // tər elemeg // hô çegmeg (əks. şiv.) − küsmək; ôgar // girinc elemeg // dəng elemeg (Buz., Maş., Mər.)-bezdirmək; bağrı yarılmağ (əks. şiv.) // ürəyi qopmağ; boğmalanmağ // lumbuldatmağ (Sal.) – yemək; əkeclig eləmeg (B.) // yekəliy eləməy (Sal.) – böyüklük etmək; *"tıjğərmək // cücərmək; civiməy // şivilməy // sivrişməy; cayməğ // çaşməğ (Ler.); ciggə vurməğ // quyuldəməğ"* [Binnətova, 2007:130]; cülünbür olmağ – islanmaq (Lən., Cəl.); qorxmaq − üşənmək // quşqulanmağ.

ç) Zərflərlə ifadə edilən sinonimlər. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində zərflərdən ibarət olan sinonimlər az müşahidə edilmişdir: yanpörtü (B., Şam. Sal.) // köndələn (B.) – çəpəki; obaşdan (B., Şam.) // obaşdannan (B., Sal.) – erkən; sifdə (B.) // sifdədən – əvvəl, əvvəlcə; basməmmedi // basmeqəfə (B.) – tələsik; zăran // gavar // bərkem - guya (Ab.); biyağlarım // bir samat qabağ- bir az əvvəl; əvvəl - qabaq // siftə; əvvəldən - qabaqcadan // binədən (əks.şiv.). Məs.: - Gərəy bı işi sifdədən görəsüz (Sal.); - Üç ay binədən xəbər gətdilər (Sal.).

d) Əvəzliklərlə ifadə edilən sinonimlər. "Belənçik // buform // buseyağ // despir // ələnçignə // hələ (əks.şiv.)" [Vəliyeva, 2001:146].

e) Saylarla ifadə edilən sinonimlər. "Zığ // xeyleg (Mər., Şağ.) // kalan − çox; irbelə // ibelə // ok`qədə // oğarta // nağarta // neki (əks.şiv.)" [Vəliyeva, 2011:146]. Məs.: − Səmedin toyuna kalan adam gəlmişdi (B.).

f) Köməkçi sözlərin sinonimliyi: "sət // tey // büspütö // sifirt (Maş., Zab.) // birətə // lül // eyzən (əks.şiv.)" [Vəliyeva, 2001:151].

Sinonimlərin yaranma imkanları.

Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində işlənən sinonimləri iki qrupa ayıra bilərik:

1) *Dilimizin daxili inkişaf qanunları əsasında şivələrdə əmələ gələn sinonimlər:* boğuşmağ // tutaşmağ – dalaşmaq; zırrama // gic // sarsağ // axmağ // səfi // ağılsız (Q.); loylağ // duraz // uzunoxar (Q.); küləfəm // kür // fərəməz // key // küləfəhəm // fərsiz // əciz (Q.); yanşağ // ozan // çərənçi // naqqal (əks.şiv.); adaxlı // yavuqlu // ilgili // deyikli − nişanlı (əks.şiv.). Məs.: − Mən səfi adama hiç salam vərmağ isdəmiyədəm (Q.); − Qızımı dünən adaxladım.

2) *Alınma sözlər vasitəsilə yaranan sinonimlər.* nimdər // nimdərçə (Q., Sal., İsm., Şam.) − balaca döşək, döşəkçə: − Usdulların üsdünə nimdərçə quyun (Q.); − Nimdəri gəti altıma qoyacam (İsm.). Nimdər fars sözüdür, "balaca döşək", "döşəkçə" mənasında işlənir; girami − əziz. Mərəkə // yığnəğ − məclis (Ler.). Mərəkə ərəb sözüdür, mənası "qalmaqal", "döyüş", "dava"deməkdir. Xublucə //

yaxşıcə (Ler.); həlim // emıl // − mehriban (Ler.). "Xub" fars mənşəli sözdür, yaxşı, gözəl mənasını, "həlim" ərəb mənşəli söz olub "xasiyyətcə, təbiətcə yumşaq adam" mənasını ifadə edir. Zığ // xeyleg (Mər., Şağ.) // kalan. Kalan sözü düzəltmə sözdür və fars dilində "sərmayə, dövlət" mənasında işlənən kala sözündən yaranmışdır.

Leksik və frazeoloji sinonimlər:

Sinonimlər leksik və frazeoloji sinonimlər olmaqla iki yerə ayrılır. Leksik sinonimlərə daxildir:

1) Yalnız dialektlərdə işlənən sinonimlər. Boğuşmağ // tutaşmağ – dalaşmaq (Sal., B.); müsdər // o:sal – tənbəl (Sal.); çəm // yol-yolağa – üsul (əks.şiv.); cüləz // cülüz // cürə // zağar // düşgün // inimiş (Q.). Məs.: − Zührənin bir cüləz qizi qalıb ödə (Q.).

2) Ədəbi dildə və dialektlərdə işlənən sinonimlər. Lələ^{ü}n // bednö^{ü}s // xul (Abş.şiv.) // gönüg (Şam.) // güdənxur // sülösün // qarınxur // qarınpə // süləngi // acgüz // çuxyiyən (Q., Xaç.) − görməmiş // acgöz // qarınqulu (ədəbi dildə); xəbərçi – şeytan // süzgəzdirən //araqarışdıran (Q., B.); şikəst − şül // əlsiz-ayağsız və s. Məs.: − Unun qızı şüldü (Q.); − Sənün şağun süləngüdü (B.).

3) Dialektlərarası sinonimlər. "Qırçı (Yevlax) // semarrığ (Maş.) − xəsis" [Vəliyeva, 2001:145]*; aba-ata (Gəd., Q., Or., Zən.) – Bizdərdə abaya ata diyəduğ (Q.); – Abam pammığı bugün biçiydi (Zən.); – Abam büyünnəri bizi kəndə aparajax (Gəd.) "ana" mənasında aba sözü Cəbrayıl, Qax, Təbriz, Şəmkir dialekt və şivələrində işlənir: – Mən abamı görmağ üçün kəndə getdim (Qax); – Bizdərdə anıya aba di`rux (Təbriz); mafar (Sal.) // macal (əks.* şiv.) // girəvə (Q.) – fürsət.

4) Frazeoloji sinonimlər iki qrupa ayrılır:

a) həqiqi mənalı sözlərlə idiomlardan ibarət sinonimlər: annamamağ – başı çıxmamaq; işdərin qutarmağ – başı açılmaq; oynamağ – sındırmaq; az-çox pul qazanmağ – çax-çux eləmək; xosunnaşmağ − pıçıldaşmaq.

b) idiomatik ifadələrdən ibarət sinonimlər: valı deyişmeg // sözü çöndərmeg − söhbətin istiqamətini dəyişmək; dolanmamağ – yola getməmək; toy tutmağ // aşını pişirmeg − cəzalandırmaq, zülm etmək; pesənd elememeg//bir qulağınan alıb, obrisinə vərmeg // vecinə almamağ − saymamaq; əmrazıya gəlmeg // hasilə gəlmeg (Ab.şiv.) − yetişmək, dəymək (ədəbi dildə); lălamağ − yalvarmaq; otyalŏ // düzdüvara dırmaşan − nadinc; *"qabırğasına dimeg // cəmdeginə döşəmeg – danlamaq"* [Vəliyeva, 2001:152]; eyni açılmaq − özünə gəlmək, əhvalı yaxşılaşmaq.

Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrinin leksikasında işlənən sinonim sözləri quruluşuna görə aşağıdakı qruplara bölmək olar:

1. Sadə sözlərdən ibarət sinonimlər: aba − ata (Q.); memə // mömə − ana (B.); zăran // gavar // bərkem − guya (Ab.şiv.); düşüg (Sal., Sab., Ə.B.) // dingiş (Sal.) // doydağ (Sab.) – yüngül xasiyyətli; sol // klizə // baləcə (Ler.); şəpit // lapçın (Şam., Lən., Sab.) – yüngül ev ayaqqabısı və s.

2. *Düzəltmə sözlərdən ibarət sinonimlər*. Morfoloji üsul ilə yaranan sinonimlər bura daxildir. Məs.: örpəy // çalma – baş örtüyü; yüklü // boylu – hamilə; süləngi (Q.) // sümsüy (Sal.); yanşağ // ozan // çərənçi // naqqal (əks.şiv.); adaxlı // yavuqlu // ilgili // deyikli − nişanlı (əks.şiv.).

3. *Mürəkkəb sözlərdən ibarət sinonimlər*: huşdurum // korafəhim – huşsuz; keçiməməsi // keçiəmcəyi – üzüm növü; tuş gəlməy // urcah olmağ – rastlaşmaq; acıtma // acıxəmrə (Sal., Sab.) - maya; **böynənə (Lən.) // ağacan (Təb.)** nənə; basməmmedi // basmeqəfə (B.) − tələsik; biyağlarım // bir samat qabağ − bir az əvvəl.

4. Biri sadə, digəri düzəltmə sözlərdən ibarət sinonimlər: şəpit // sürütmə – ev ayaqqabısı; seyvan // artıma – balkon, cınqır // hənirti – səs; çamur // batdax – palçıq; simic // bərk // qıyımsız // semarrığ; balaca döşək, döşəkçə; yovannığ // nôxarış // numxarış (Bil., Mər., Şağ.) − yavanlıq; səletə // xərəngə // hayəsız // qərəyçi (Ler.) − ədəbsiz, abırsız; zığ // xeyleg (Mər., Şağ.) − kalan.

5. Biri sadə, digəri mürəkkəb sözlərdən ibarət sinonimlər: hünü // ağcaqənət – ağcaqanad; tiyə // yelapardı – nazik; çəm // yol-yolağa – üsul, qayda; cüləz // cükqulu // cüngüşməni (əks.şiv.) − cılız; bajılıx // cici-bacı – rəfiqə; hüni // ağcaqənət (Sal., B., Ə.B.) // ditdili (Sab.) // kormilçəg (Dər.) // uzunburun (Dər., Q., Xaç) – ağcaqanad.

6. Biri düzəltmə, digəri mürəkkəb sözlərdən ibarət sinonimlər: to:lamağ // dilə tutmağ – aldatmaq (B.); dümsüyləməy // him-cim eləməy – işarə etmək (Sal. Sab.).

Sinonim frazeoloji vahidlər: Özünü oda-közə atmeg (əks. şiv.) − bir iş üçün fədakarcasına çalışmaq; salağa eləməg − nişan vermək; fır elemeg // tər elemeg // hö çekmeg (əks.şiv.) − küsmək, incimək; ögar // girinc elemeg − dəng elemeg; sebil // pərən-pərən olmağ (Buz.) − dağılmaq, səpələnmək; bilənmeg//pandum olmağ (Şağ., Z., Tür.) – islanmaq; *"lălamağ // dil çıxartmağ (Tür., Maş., Buz., Nar.) – yalvarmaq"* [Vəliyeva, 2001:146]. Az-çox pul qazanmağ – çax-çux eləmək (Sal.); toy tutmağ – aşını pişirmağ (Quba); vecinə almamağ − saymamağ (əks.şiv.); işdərin qurtarməğ-başi açılməğ (Lənkəran); behüş olməğ − özünnən

getməğ (Lən., Hal.). Məs.: *"Bi ğəzən pılov asmişəm, iysinnən behüş oleysən"* [Binnətova, 2007:72]. Qədəğə eləməğ − xəbər etmək (Züv.).*" Əyin-öyün eləmə, lazım olsə mənə qədəğə elə"* [Binnətova, 2007:88]. Qəmli uxıya durmaq-qəmə batmağ (Q.). Məs.: − Nə çux belə qəmli uxıya durmısan? (Q.). Lələun olmağ – sülöüsün, acgüz, qarınxur olmağ (Q.). Məs.: − Sən lələun uldun qaldun (Q.); dubalağ gəlməg − kələk, hiylə gəlmək.*"Mənə dubalağ gəlmə, hər şeyi bilədəm (Q.,Əms.,Nüg.)"* [Rüstəmov, 1961:211].

Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində işlənən sinonim sözləri aşağıdakı məna qruplarına ayaırmq olar:

1. İnsanların xarakteri ilə əlaqədar olan sinonimlər: düşüg (Sal., Sab., Ə.B.) // dingiş (Sal.) // doydağ (Sab.) – yüngül xasiyyətli adam; həlim // emıl // mehriban (Ler.); *"başdanxərəb // sərsağ // semə // tentük // həştirap (Buz., Şağ., Mər., Bil.)"* [Vəliyeva, 2001:145]; incə // yuxa − zəif; səletə // xərəngə // hayəsız // qərəyçi (Ler.); simic // bərk // qıyımsız // semarrığ // gedeqız (Buz., Maş., Maş., Mər.) // xəsis // kirnis // çınığ // daşun // koçi (Ler.) − xəsis; dələgey // dələngavaz // şalattı (Mər., Maş., Buz.) − həyasız; cığəl // dəğəl; sol // klizə // baləcə (Ler.).

2. İnsanların xarici görünüşü ilə əlaqəli sinonimlər: sısqa (Q.) // cüləz (Q.) //arığ // canəzil // zeyif // düşgin (Lən., Ler.) – arıq; cükqulu // cüngüşməni (əks.şiv.) − cılız, kiçik adam; beröyiş // tərtibsız // eybəcər (Ler.); nataraz // hötdürüm // dövədəllegi // legi // zıbığ (Z.) // besdərək // pezevəng (Nar., Maş., Bil., Şağ.) − iri gövdəli adam.

Nəticə/Conclusion

Deməli, sinonimlərin həm ədəbi dildə, həm də dialektlərdə işlənməsi üçün əsas amil onun spesifik mənası və üslubi rəngarənglik yaratmaq vəzifəsinə malik olmasıdır. Şərq qrupu dialektlərində işlənən sinonimlərin çoxu ümumişlək dildən canlı danışığa keçən leksik vahidlərdir. Həmin sözlərin ekvivalentləri sinonimik qarşılıq kimi sözügedən dialektlərdə işlənmişdir. Gətirdiyimiz nümunələrdən də göründüyü kimi, ədəbi dildə işlənən sinonimlər paralel olaraq Şərq qrupu dialektlərində də müəyyən üslubi məqamlar yaratmışdır. Ümumiyyətlə, dialektlərdə sinonimlərin qoşa işlənməsi onların məna incəliyi, səlis və qüvvətli şəkildə ifadə olunması ilə əlaqəlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti (2007). – Bakı: Şərq-Qərb. −568 s.
2. Binnətova, Güntəkin (2007). Azərbaycan dilinin Lerik rayonu şivələri. − Bakı: Nurlan. − 176 s.
3. Hüseynzadə, Muxtar (1954). Müasir Azərbaycan dili. − Bakı: Azərbaycan Universiteti nəşriyyatı. − 242 s.
4. Rüstəmov, Rəsul (1961). Quba dialekti. − Bakı: Azərbaycan SSR EA. – 281 s.
5. Vəliyeva, Gülxanım (2001). Şərqi Abşeron şivələrinin leksikası. − Bakı: Elm. − 167 s.

Məqalə tarixçəsi
Daxil olub *03.11.2024*
Düzəlişə göndərilib *07.11.2024*
Qəbul edilib *30.10.2024*
Nəşrə tövsiyə edib *Könül Səmədova*
filologiya elmləri doktoru, dosent